# Beynəlxalq təşkilatların proqnozları bu il AZƏRBAYCANDA daha böyük uğurlar əldə ediləcəyindən xəbər verir



***Azərbaycanın çox möhtəşəm inkişafı hələ qabaqdadır. Respublikamız bundan sonra da inamlı inkişaf yolu ilə gedəcək, beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcək və bütün beynəlxalq təşəbbüslər xalqın maraqlarını müdafiə edəcəkdir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanda ötən il ərzində həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində mühüm uğurlar əldə edilib, sosial-iqtisadi inkişafın dayanıqlılığı təmin olunub. Bu isə ölkə iqtisadiyyatının 2020-ci ildə də öz inkişaf dinamikasını qoruyub saxlayacağını, iqtisadi artımın müsbət meyillərinin davam edəcəyini deməyə əsas verir. Cari ildə gözlənilən irəliləyiş beynəlxalq təşkilatların hesabatlarında da konkret rəqəmlərdə öz ifadəsini tapır.***

Birləşmiş Millətlər Təşkilatının (BMT) və “S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin məlumatlarında bildirilir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub və Azərbaycan dövlətinin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir.

Xatırladaq ki, BMT-nin hesabatında Azərbaycan iqtisadiyyatının bu il 2,5 faiz, gələn il isə 2,6 faiz artacağı proqnozlaşdırılır.

Təşkilat respublikamızda 2020-ci ildə inflyasiya üzrə proqnozunu da açıqlayaraq, bu dövrdə Azərbaycanda istehlak qiymətləri indeksinin 2019-cu ilə nisbətən 2,8 faiz artacağını bildirib.

Yeri gəlmişkən, Azərbaycan hökumətinin rəsmi proqnozlarına əsasən, 2020-ci ildə inflyasiya 4,6 faiz olacaq və ölkədə pul siyasətinin son hədəfi inflyasiyanın 4±2 faiz dəhlizində saxlanılması reallaşdıracaq.

“S&P Global Ratings” beynəlxalq reytinq agentliyi isə Azərbaycanda bu il gündəlik neft hasilatının təxminən 3 faiz və ya 733 min barelə qədər azalacağını, sonrakı dövrdə sabitləşəcəyini proqnozlaşdırıb.

Məlumata əsasən, sabitləşmə “Şahdəniz-2” və “Abşeron” layihələrinin hesabına təmin ediləcək. Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunda hasilatın azalması isə hasil edilən qaz kondensatının reallaşdırılması nəticəsində kompensasiya olunacaq.

Qeyd edək ki, hazırda AÇG-də neft hasilatının təbii azalması müşahidə edilir. Buna baxmayaraq, “Şahdəniz” qaz-kondensat yatağında qaz və kondensatın hasilatında kəskin artım var. Bundan əlavə, gələn il “Abşeron” qaz-kondensat yatağında hasilatın başlanılması gözlənilir.

“S&P Global Ratings”, eyni zamanda, növbəti dörd ildə Azərbaycan manatının məzənnəsinin ABŞ dollarına nisbətdə sabit 1,7 səviyyəsində olacağını proqnozlaşdırır. Beynəlxalq reytinq agentliyi hazırda manatın məzənnəsinin dövri fiksasiya ilə çevik məzənnə rejimi kimi təsvir edir. Agentliyin hesablamasına görə, neftə olan qiymətlər gözləniləndən aşağı ensə, Azərbaycan Mərkəzi Bankı manatın məzənnəsini operativ şəkildə tənzimləyəcək.

“S&P Global Ratings” agentliyi Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının 2024-cü ilə qədər 20,2 faiz artaraq 7,521 milyard ABŞ dollarına çatacağını da proqnozlaşdırır.

Agentliyin hesabatında Azərbaycanda bu il ÜDM-in artım tempinin 1,7 faiz, 2021-ci ildə isə 3,2 faiz səviyyəsində olacağı bildirilir. Eyni zamanda, 2022-2023-cü illərdə iqtisadi artımın 2,2 faiz səviyyəsində olacağı gözlənilir.

“S&P Global Ratings” agentliyinin məlumatında, həmçinin vurğulanır ki, 2020-ci ildə Azərbaycan iqtisadiyyatına yatırılan investisiyalar ÜDM-in 19,6 faizini, 2021-ci ildə 18,7 faizini, 2022-ci ildə 18,4 faizini, 2023-cü ildə isə 18,2 faizini təşkil edəcək.

Agentlik sözügedən dövrdə ölkənin dövlət borcunun nisbətən aşağı səviyyədə olacağını da diqqətə çatdırıb. Şübhəsiz ki, belə bir proqnoz respublikada reallaşdırılan islahatlara əsaslanılaraq hazırlanıb.

Yeri gəlmişkən, Azərbaycanın orta və uzun müddətdə dövlət borcunun idarə edilməsi üçün 3 əsas məqsəd müəyyənləşdirilib. Prezident İlham Əliyevin 24 avqust 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da bu barədə ətraflı bəhs edilib.

Sənəddə bildirilir ki, mövcud kreditlər üzrə nəzərdə tutulan vəsaitdən istifadə, eyni zamanda, prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə yeni borcalmalar 2019-cu ildə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin artaraq 24,7 faiz olmasına gətirib çıxarsa da, əlavə borcalmaların həyata keçirilməməsi və dövlət borcuna xidmət xərclərinin cəlb olunacaq vəsaitdən çox olması ilə dövlət borcu portfelinin həcmi azalacaq. Nəticədə borcalmaların 2020-ci ildə 10,7 milyard ABŞ dollarından 2025-ci ildə 7,7 milyard dollara çatdırılması təmin ediləcək.

Qarşıdan gələn strateji dövrdə (2018-2025-ci illər) dövlət borcunun idarə olunması sahəsində əsas məqsəd gələcək illər üçün dövlət borcunun dayanıqlılığını təmin etməklə ÜDM-ə nisbətinin tədricən azaldılmasına nail olmaqdır. Bu isə ortamüddətli dövrdə dövlət borclarının idarə edilməsinin strateji çərçivəsinin yaradılmasını, habelə xərc və risklərin müvafiq tarazlığı nəzərə alınaraq, ən optimal maliyyə alətlərinin seçilməsini tələb edir. Sözügedən strateji çərçivə daxili borcalmanı təkcə alternativ maliyyələşmə mənbəyi kimi deyil, eyni zamanda, daxili maliyyə bazarlarının inkişafı üçün zəruri alət kimi nəzərdə tutur.

Strategiyada qarşıya qoyulan birinci əsas məqsəd həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlılığını təmin etməkdir. Bunun üçün 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması hədəfi gözləniləcək. Eyni zamanda, ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin 15 faizdən aşağı olmasına çalışılacaq.

“S&P Global Ratings” agentliyi ölkəmizin reytinqini gələcəkdə aşağı və yuxarı qaldıra biləcək amilləri də vurğulayıb. Mümkün səbəblər kimi, “Şahdəniz-2” layihəsində gecikmələr və ya neft hasilatında gözləniləndən daha sürətli azalmalar, yaxud karbohidrogen qiymətlərinin aşağı düşməsi göstərilib. Reytinqlərin yüksəlmə səbəbləri arasında isə karbohidrogen qiymətlərinin proqnozlardan yuxarı qalxması və ölkə iqtisadiyyatının diversifikasiyasının artması qeyd olunub.

Azərbaycanın bu il üçün gözlənilən inkişaf dinamikası həyata keçirilən islahatların, başqa sözlə, dövlət başçısının neft və qazdan asılılığın azaldılması məqsədilə 2019-cu ildə sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, müasir texnologiyaların və elektron kənd təsərrüfatı sisteminin tətbiqi, özünüməşğulluq proqramının icrası, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunmaları və s. tədbirlərin məntiqi nəticəsidir.

Məhz bütün bunların hesabına ötən il müsbət nəticələr əldə olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, il ərzində 46,7 milyard manatlıq və ya 2018-ci illə müqayisədə 1,8 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 14,3 faiz artıb.

Azərbaycanda ÜDM-in strukturunda sənayenin üstün artım tempi qlobal trend olaraq dördüncü sənaye inqilabı ilə səsləşir. Sənayenin ÜDM-də xüsusi çəkisinə görə, Avropada ön sırada gedən respublikamız hazırda sənayenin strukturunda neftdən qeyri-neft bölməsinə uğurlu keçid edir. Təkcə son iki ildə qeyri-neft sənayesində əsas kapitala yönəldilən investisiya 70 faizə yaxın artıb. Bu, həm də neft sənayesində əldə edilən artımın mərhələli şəkildə qeyri-neft sektoruna transfer olunması deməkdir. Belə bir vəziyyət, ondan xəbər verir ki, qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Yeri gəlmişkən, hazırda qeyri-neft sektorundakı artım ümumi iqtisadi artımdan daha yüksəkdir. Bu, eyni zamanda, 2015-ci ildən sonra dərinləşən islahatlar nəticəsində iqtisadiyyatın mərhələli şəkildə şaxələnməsinin real nəticələrinin olmasından xəbər verir. Digər sahələrdə, eləcə də aqrar, turizm, xidmət sektorlarında artım tempinin proqnozlaşdırıldığından daha çox olması, makroiqtisadi sabitliyin qorunub saxlanması da keçən ilin əsas iqtisadi nəticələri kimi xarakterizə olunmalıdır.

Hesabat dövründə ölkədə istehsal olunan ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 81 milyard 681 milyon manata çatıb, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunan əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda isə 0,4 faiz artıb. ÜDM-in 41,4 faizi sənaye sahəsində istehsal edilib, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,7 faizini təşkil edib.

Keçən il ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 184 milyon manat vəsait yönəldilib, sərf edilən vəsaitin 65,4 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil edib. Ümumi sərmayənin 66,3 faizi məhsul istehsalı, 25,8 faizi xidmət sahələrinə, 7,9 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsait isə ümumi sərmayənin 69,8 faizini təşkil edib.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2020.- 30 yanvar.- s.1.